# Sabirabad: İdmanın kütləviliyi başlıca meyardır

Ölkəmizdə bütün sahələrə olduğu kimi, idmana, bədən tərbiyəsinin inkişafına diqqət ön plandadır. Bu diqqətin nəticəsidir ki, idmançılarımız dünya miqyaslı mötəbər yarışlarda uğurlu göstəricilər qazanır, ölkəyə medallar gətirir, Azərbaycan bayrağını planetin müxtəlif ünvanlarında dalğalandırır, himnimizi səsləndirirlər. Sovet dönəmində yalnız paytaxtda və respublikanın iri şəhərlərində müxtəlif idman zalları, idman qurğuları yerləşdirilirdi. Sanki bədən tərbiyəsinə qayğı ancaq iri yaşayış yerlərinə məxsus olmalı idi. Müstəqillik dövründə isə belə deyil. Dövlət başçısı cənab İlham Əliyevin qayğı və diqqəti sayəsində indi respublikanın müxtəlif ünvanlarında, regionlarda da idmanın kütləviliyi təmin olunur. Son illərdə ayrı-ayrı rayonlarda tikilib istifadəyə verilən olimpiya idman kompleksləri deyilənlərə əyani misaldır. Regionun Mərkəzi Aran hissəsində yerləşən Şirvan şəhərində, Sabirabad və Kürdəmir rayonlarında olimpiya idman kompleksi səmərəli fəaliyyət göstərir. Adıçəkilən idman ocaqlarından birində - Sabirabad Olimpiya İdman Kompleksində olduq. Bəri başdan deyək ki, artıq 10 ilə yaxın müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, burada hər şey adama təzə görünür. Səliqə-sahman, təmizlik göz oxşayır, dərhal hiss edirsən ki, rəhbərlik nizam-intizamı ciddi şəkildə qoruyub saxlaya bilir. Amma bütün bunlar işin bir tərəfidir. Əsas məsələ kompleksdə idmanın inkişafına verilən töhfələrdir. **OİK-in direktoru Oqtay Mehdiyevlə** söhbət zamanı son illər idmanda əldə olunmuş uğurlar sözün əsl mənasında adamda qürur hissi oyadır. Oqtay müəllim deyir:

- Sabirabad Olimpiya İdman Kompleksində boks, sərbəst güləş, dzü-do, əlbəyaxa idman döyüşü, Yunan-Roma güləşi, üzgüçülük, trenajor, futzal idman bölmələri fəaliyyət göstərir. Olimpiya idman növlərinə daxil olan sərbəst güləş və boks idman növlərinin məşqləri pulsuz keçirilir. Diqqət və qayğının nəticəsidir ki, bu iki idman növü son vaxtlar xeyli inkişaf etmişdir. Hər iki idman növündə məşq edən gənclərimiz respublika yarışlarında nailiyyətlər qazanırlar. Kompleksdə keçən il yaddaqalan xeyli idman tədbirlərimiz olub.

Respublika Gənclər və İdman Nazirliyinin, rayon Gənclər və İdman İdarəsinin tədbirlər planına əsasən keçirilən zona yarışları, rayon birincilikləri idmanın inkişafına güclü təkan vermişdir. Bu yarışlarda uğurlu göstəricilər əldə edən oğlan və qızlar, habelə rayon OİK-in idmançıları respublika səviyyəli yarışlarda iştirak etmək hüququ qazanaraq yüksək nailiyyətlər əldə etmişlər. Respublikada idmanın və bədən tərbiyəsinin inkişafına daima qayğı və diqqət göstərən dövlət başçısı cənab İlham Əliyev tövsiyə edir ki, kənd yerlərində idmanın kütləviliyinə nail olmaq günün vacib məsələsidir. Tövsiyəni əldə rəhbər tutaraq keçən il Sabirabad OİK "Məhsul" Kənd İdman Cəmiyyəti ilə birlikdə Azərbaycan xalq milli idman oyunları üzrə kənd idmançılarının 29-cu Respublika Spartakiadasının final yarışlarını keçirdi. Yarışda gənclər 9 milli idman növü üzrə öz qüvvələrini sınadılar. Bunlar milli güləş, daşqaldırma, dirədöymə, çalağan çardağı, xıy-xıy, qadınlar arasında gücsınama, kişilər arasında gücsınama, nərd, kəndirdartma xalq idman növlərindən ibarət idi. Finalda 16 rayondan 250-yə yaxın idmançı iştirak edirdi. Komanda hesabında Sabirabad idmançıları birinci yerə çıxdılar.



Keçən ilin oktyabr ayında OİK-də keçirilən karate idman növü üzrə Respublika birinciliyində 12 rayon və şəhərdən gəlmiş 130 idmançı öz qüvvəsini sınadı.

Hazırda Kompleksdə 300 nəfərdən artıq yeniyetmə və gənclər idmanın müxtəlif növləri üzrə məşqlərə davam edirlər. Keçən il respublika əhəmiyyətli yarışlar keçirmişik. Ötən il yüksək göstəricilər əldə edən idmançılarımızın adını çəkmək istəyirəm.

Ümidverici yeniyetmə idmançı Varis Mehdizadənin göstəriciləri sevindiricidir. Varis idmanın sərbəst güləş növü ilə məşğul olur. Kompleksin yetirməsi Varis keçən il Şamaxı şəhərində dünya çempionu Olik Qrapelinin şərəfinə keçirilən 7-ci açıq Respublika birinciliyində 80 kiloqram çəkidə 2-ci yerə çıxdı. Bu il Bakıda 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsinə həsr olunmuş Beynəlxalq yarışda fəxri kürsünün 3-cü pilləsinə yüksəldi.

Biz Oqtay müəllimlə bu gözəl idman ocağının qorunub saxlanılması yollarından söhbət açırıq. Aydın olur ki, kompleksdə 21 nəfər işçi çalışır. İdman ocağında təmizliyin, səliqə-sahmanın, avadanlıqlarla rəftarın gözlənilməsi kollektiv üzvləri arasında əsas vəzifə hesab olunur. İl ərzində kompleksin məhdud daxili gəlirləri hesabına mövcud infrastrukturun qorunub saxlanılması naminə müxtəlif təsərrüfat işləri görülmüşdür.

Sabirabad Olimpiya İdman Kompleksi uğurlu yoldadır. Əldə olunan yüksək göstəricilər, habelə OİK-də yaradılan gözəl şərait Respublika Gənclər və İdman Nazirliyinin diqqətindən yayınmamışdır.

Oqtay müəllim deyir:

- Respublika Gənclər və İdman naziri Azad Rəhimov, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov fəaliyyətimizlə daim maraqlanır, bu və ya digər problem yarananda köməkliklərini əsirgəmirlər. Bəli, rayon gəncləri bu idman ocağına həvəslə müraciət edir, bu və ya digər idman növləri ilə məşğul olmağa xüsusi həvəs göstərirlər. Oqtay müəllim əlavə edir ki, gəncliyin idmana olan həvəsi yaxın gələcəkdə öz yeni-yeni nəticələrini göstərəcəkdir.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

Respublika.- 2020.- 29 yanvar.- S.4.